

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 15 fevral 2023-cü il №12 (2724) https://mod.gov.az Qiyməti 30 qəpik


## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Azərbaycanın potensialı, o cümlədən yaşıl enerji potensialı Avropa üçün yeni imkanlar açacaq

*Fevralın 13-də Bakıda "Gülüstan" sarayında müstəqillik dövrünün 1280 MVt gücündə ən böyük İstilik Elektrik Stansiyasının təməlqoyma mərasimi keçirilib.*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Dövlətimizin başçısı tədbirdə çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**

- Hörmətli xanımlar və cənablar.

Hörmətli qonaqlar.

Bu gün biz Mingəçevir şəhərində yeni 1280 meqavat gücündə elektrik stansiyasının təməlinin qoyulması mərasiminə toplaşmışıq. Əminəm ki, biz yaxın zamanlarda - 2025-ci ildə bu stansiyanın açılışını qeyd edəcəyik.

Bu, çox əlamətdar hadisədir, ölkəmizin enerji potensialını böyük dərəcədə gücləndirəcək, eyni zamanda, Mingəçevirin Azərbaycanın elektroenergetika mərkəzi kimi önəmini daha da artıracaq. Onsuz da Mingəçevir hazırda elektroenergetika sahəsində bizim əsas şəhərimizdir. Mingəçevirdə fəaliyyət göstərən elektrik stansiyası bu gün ölkəmizin elektrik enerjisinə ehtiyacının böyük hissəsini ödəyir.

Mingəçeviri nəinki Azərbaycanın, ümumiyyətlə, Qafqazın enerji mərkəzinə çevirən Ulu Öndər Heydər Əliyev olmuşdur. Onun rəhbərliyi və təşəbbüsü ilə ötən əsrin 70-ci illərində - daha doğrusu, 1976-cı ildə Mingəçevirdə böyük elektrik stansiyasının təməli qoyulmuşdur. Böyük stansiyanın birinci blokunun 1981-ci ildə Heydər Əliyevin şəxsən iştirakı ilə açılışı olmuşdur.

Ümumi generasiya gücü 2400 meqavat olan stansiya ölkəmizin nəinki enerji potensialını, ümumiyyətlə, sənaye potensialının böyük hissəsini ödəyərək imkan verdi ki, hətta müstəqilliyimizin ən ağır illərində, ilk illərdə Azərbaycanda elektrik enerjisi ilə təchizat təmin edilsin. Halbuki o vaxt Bakıda və Azərbaycanın müxtəlif yerlərində yaşamış




insanlar yaxşı xatırlayırlar ki, o dövrdə hətta elektrik enerjisi kəsilirdi, kəsir var idi, özümüzü təmin edə bilmirdik. Amma buna baxmayaraq, əsas yükü o zaman məhz Mingəçevir Elektrik Stansiyası öz üzərinə götürmüşdür.

Təbii ki, illər keçdikcə istənilən infrastruktur köhnəlir, o cümlədən Mingəçevir Elektrik Stansiyasının yenidən qurulması prioritet məsələlərdən biri idi və mənim göstərişimlə 2018-ci ildə stansiyanın tamamilə yenidən qurulması prosesi başlamışdır. Qısa müddət ərzində - artıq iki ildə 8 blok tamamilə yenidən qurulmuş və istifadəyə verilmişdir. Beləliklə, 2020-ci ildə stansiya, necə deyərlər, öz əzəli gücü ilə yenidən işləməyə başlamış və 2400 meqavat generasiya gücünə malik olmuşdur.

Onu da bildirməliyəm ki, bərpa-yenidənqurma işləri nəticəsində təqribən 600 meqavatdan çox itirilmiş güclər bərpa edildi və bu da özlüyündə yeni bir böyük stansiyanın tikintisi deməkdir.

Mingəçevir Elektrik Stansiyasının önəmi İkinci Qarabağ müharibəsi zamanında bir daha bəlli oldu. Çünki o vaxt döyüş meydanında məğlub olan Ermənistan Azərbaycanın mülki obyektlərini də atəşə tuturdu, yüzlərlə yaşayış evi tamamilə dağıdılmışdır, yüzə yaxın dinc insan həlak olmuşdur, o cümlədən Mingəçevir Elektrik Stansiyası da atəşə tutulmuşdur, uzaqmənzilli raketlərin bir çoxu Azərbaycanın hava hücumuna qarşı müdafiə sistemləri tərəfindən məhv edildi, bəziləri isə hədəfə dəymədi. Yəni, döyüş meydanında məğlub olan Ermənistan məhz Azərbaycanın elektrik potensialının əsas mərkəzini sıradan çıxarmaq istəyirdi. Ancaq buna nail ola bilmədi.

İndi isə Mingəçevir şəhərinin Azərbaycanın və nəinki Azərbaycanın, bütün Qafqazın elektroenergetika mərkəzi kimi yeni dövrü başlayır, təxminən 1300 meqavat gücündə olan stansiya, əlbəttə ki, bizim potensialımızı böyük dərəcədə gücləndirəcək. Bu, Azərbaycanın enerji təhlükəsizliyinə verilən növbəti töhfə olacaq, yüzlərlə yeni iş yerləri yaranacaq və beləliklə, Azərbaycan öz imkanlarından tam istifadə edərək həm daxili tələbatı ödəyəcək, eyni zamanda, həm elektroenergetika, həm də təbii qaz sahəsində daha böyük addımlar atacaq. Çünki yeni tikiləcək stansiyada şərti yanacağın sərfiyyatı kifayət qədər aşağıdır və bu, imkan verəcək ki, ildə təqribən 800 milyon kubmetr və ya 1 milyard kubmetr qaza qənaət edilsin. Bu gün Avropa məkanında Azərbaycan qazına böyük tələbat olduğu üçün bu, eyni zamanda, Avropanın enerji təhlükəsizliyinə növbəti töhfə olacaqdır.

Onu da bildirməliyəm ki, yeni tikiləcək bu stansiyanın müasir standartlara cavab verməsi nəticəsində karbon qazının miqdarı çox böyük dərəcədə - 2 milyon ton azalacaq və beləliklə, ətraf mühitə də bunun çox böyük faydası olacaqdır.

Stansiya Azərbaycanın daxili resursları çərçivəsində inşa ediləcək. Onu da bildirməliyəm ki, mənə verilən məlumata görə, stansiyanın ümumi dəyəri təqribən 400 milyon dollara qədər olacaq və elektroenergetika sahəsini yaxından bilən insanlar bilirlər ki, təxminən 1300 meqavat gücündə olan stansiya neçəyə başa gələ bilər. Yəni, bu stansiyaya sərf ediləcək vəsait bir qayda olaraq, bu böyüklükdə stansiyaların tikintisinə sərf olunan vəsaitdən 3-4 dəfə aşağıdır. Bunun da səbəbi, əlbəttə ki, səmərəlilikdir. Eyni zamanda, bunun səbəbi odur ki, Mingəçevirdə artıq güclü elektroenergetika infrastrukturu yaradılmışdır və bu stansiyanın məhz Mingəçevirdə inşa edilməsi də, ilk növbədə, bu məqsədi güdür.

Ona görə biz az vəsaitlə böyük enerji potensialına malik oluruq. Eyni zamanda, ödəniləcək vəsaitin 60 faizi "Azərenerji"nin öz vəsaiti hesabına təmin ediləcək. Qalan 40 faiz isə kreditlər vasitəsilə təmin ediləcək. Yenə də nəzərə alsaq ki, burada iş əmsalı çox yüksək olacaq, təbii qaza böyük qənaət olacaq, bir neçə il ərzində əminəm ki, bu stansiyanın fəaliyyəti nəticəsində həm qoyulan vəsait qayıdacaq, eyni zamanda, kredit borcu da bağlanacaq.

Yəni, bu, hərtərəfli uğurlu bir layihədir. Baxmayaraq ki, hazırda dünyada, Avropada, o cümlədən Azərbaycanda bərpaolunan enerjiyə daha böyük üstünlük verilir, biz də bu sahədə böyük uğurlara artıq imza atmışıq. Buna baxmayaraq, ənənəvi resursların, ənənəvi stansiyaların da faydası göz önündədir.

Bildirməliyəm ki, bu stansiyanı biz xarici tərəfdaşlarla birlikdə inşa edəcəyik. Bugünkü mərasimdə İtaliyanın şirkətlər və "Made in Italy" naziri iştirak edir. Mən hörmətli qonağı səmimiyyətlə salamlayıram. Eyni zamanda, Çinin bir şirkəti bu stansiyanın tikintisində iştirak edəcək. Yəni, biz bu işi xarici əməkdaşlıq çərçivəsində görəcəyik. Əlbəttə ki, "Azərenerji" ilə İtaliyanın "Ansaldo" şirkəti arasındakı əlaqələr burada həlledici rol oynayır. Bildirməliyəm ki, "Azərenerji" ilə "Ansaldo" arasında müqavilələr İkinci Qarabağ müharibəsi başa çatandan dərhal sonra imzalanmışdır. Azad edilmiş Qarabağda və Şərqi Zəngəzurda bu gün böyük quruculuq-bərpa işləri getdiyi bir dövrdə, ilk növbədə, o bölgənin enerji potensialı araşdırılır və bu istiqamətdə də "Ansaldo" və "Azərenerji" tərəfdaşlıq çərçivəsində fəaliyyət göstərirlər.

İtaliya şirkətinin bu stansiyanın inşasında iştirakı təsadüfi deyil. İtaliya bizim strateji tərəfdaşımızdır. İtaliya ilə Azərbaycan arasında strateji tərəfdaşlığa dair iki sənəd imzalanmışdır, yüksək səviyyəli qarşılıqlı səfərlər təşkil edilmişdir. Bu ilin yanvar ayından başlayaraq İtaliyanın yeni hökumətinin üç naziri artıq Azərbaycana səfərlər etmişlər - müdafiə naziri, energetika naziri və bu gün şirkətlər və "Made in Italy" naziri. Cəmi bir ay ərzində, - yəni, birinci səfər yanvarın 11-də olmuşdur, - yeni hökumətin 3 naziri Azərbaycanda səfərdə olub. Bu, bizim əlaqələrimizin, doğrudan da, nə qədər yüksək səviyyədə olmasından xəbər verir.

**(Ardı 2-ci səhifədə)**

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Azərbaycanın potensialı, o cümlədən yaşıl enerji potensialı Avropa üçün yeni imkanlar açacaq

(Əvvəli 1-ci səhifədə)



Əlbəttə, bütövlükdə energetika sahəsində əməkdaşlıq ənənəvidir. Azərbaycan neftinin böyük hissəsi İtaliya bazarına çatdırılır və iki ildən artıqdır ki, Azərbaycan qazı İtaliya bazarına çatdırılır. TAP layihəsi bizim birgə uğurumuzdur. Cənub Qaz Dəhlizinin başlanğıcı Azərbaycanın Xəzər dənizindəki sektorudursa, bunun son məntəqəsi İtaliyadır və yol boyunca bir neçə ölkə Azərbaycan qazından faydalanır. O cümlədən Avropanın yeni ehtiyaclarını nəzərə alaraq və keçən il Avropa Komissiyası ilə Azərbaycan arasında imzalanmış sənədə əsasən, biz Avropa məkanına təbii qazın həcminin artırılmasını təmin edəcəyik. Əlbəttə ki, burada TAP layihəsinin iki dəfəyədək genişləndirilməsi məsələsi gündəlikdədir. Bu məsələ artıq bir müddətdir ki, müzakirə edilir, o cümlədən bu ayın əvvəlində Bakıda keçirilmiş Cənub Qaz Dəhlizinin Məşvərət Şurasında geniş müzakirə edilmişdir.

Əminəm ki, biz bütün istiqamətlər üzrə hədəflərə çatacağıq və necə ki, neft və qaz layihələri, eyni qaydada Azərbaycanın elektrik enerjisi də Avropa məkanına çatdırılacaq. Bu məqsədlə keçən ilin dekabr ayında müvafiq anlaşma imzalanmışdır və Azərbaycanın potensialı, o cümlədən yaşıl enerji potensialı Avropa üçün yeni imkanlar açacaqdır.

Yəni, İtaliya-Azərbaycan əlaqələri təkcə iki ölkənin maraqlarını təmin etmir, böyük coğrafiyanın maraqlarını təmin edir. Onu da bildirməliyəm ki, bizim əməkdaşlığımız təkcə energetika sahəsi ilə məhdudlaşmır. İtaliya Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Hazırda Bakıda Azərbaycan-İtaliya Universitetinin yeni binası inşa edilir. Azad edilmiş torpaqlarda bərpa-yenidənqurma işlərində İtaliya şirkətləri çox fəal iştirak edirlər - dini abidələrin bərpası və tikintisi, qələbə muzeylərinin tikintisi və dizaynı. Yəni, bu, doğrudan da, çox strateji tərəfdaşlıqdır və əlbəttə ki, bugünkü mərasim bunu bir daha göstərir.

Deməliyəm ki, Azərbaycanda bütövlükdə elektroenergetika sahəsi son illər ərzində çox sürətlə və uğurla inkişaf etmişdir. Son 20 il ərzində Azərbaycanda 34 elektrik stansiyası inşa edilmişdir və bu stansiyaların generasiya gücü təqribən 3400 meqavata bərabərdir. Sadəcə olaraq, müqayisə üçün deyə bilərəm ki, hazırda bizim ümumi generasiya gücümüz 7200 meqavatdır, onun 3400 meqavatı son 20 ildə yaradılmışdır. İndi təsəvvür edin, əgər biz bunu etməsəydik, əgər bu məsələni prioritet seçməsəydik, bu gün bizim iqtisadi və sənaye inkişafı sual altında ola bilərdi. Bu gün biz öz enerji təhlükəsizliyimizi təmin edə bilməzdik. Yəni, bütün işlər vaxtında aparıldı, ardıcıllıqla aparıldı. Bugünkü mərasim və 2025-ci ildə fəaliyyətə başlayacaq yeni stansiya bizim enerji potensialımızı daha da gücləndirəcək. Çünki buna həm Azərbaycanda, həm də Avropada ehtiyac var. Biz azad edilmiş torpaqlarda bərpa-yenidənqurma işlərini, ilk növbədə, elektroenergetika sahəsindən başlamışdıq və artıq 10-dan çox yarımstansiya inşa edilmişdir, 10-dan çox su-elektrik stansiyası inşa edilmişdir. Artıq biz iki il ərzində Şərqi Zəngəzur bölgəsində 50 meqavatdan çox generasiya gücü yaratdıq və bu rəqəm bu ilin sonuna qədər 200 meqavata çatacaq. Yəni, biz ancaq azad edilmiş torpaqlarda cəmi 3 il ərzində 200 meqavatlıq enerji gücü yaratmış olacağıq. Bütün stansiyalar ümumi şəbəkəyə qoşulmuşdur. Şərqi Zəngəzurun və Qarabağın böyük hidroenergetika potensialı imkan verəcək ki, biz o bölgələrdə 500 meqavata qədər generasiya gücləri yaradaq. Yəni, bu sahə prioritet olaraq qalır.

Amma, eyni zamanda, bildiyiniz kimi, bərpaolunan enerji növlərinin inkişafı üçün Azərbaycanda çox böyük potensial var. Hazırda iki stansiya inşa edilir - 470 meqavatlıq günəş və külək. Üçüncü stansiyanın inşası yaxın vaxtlarda başlayacaq, o da bizə təqribən 240 meqavat əlavə güc verəcək. Hazırda xarici investorlarla imzalanmış sənədlər əsasında 25 qiqavata qədər günəş və külək elektrik enerjisi stansiyalarının inşası nəzərdə tutulur - böyük hissəsi Xəzər dənizində, bir neçəsi isə quru sahələrdə. Yəni, bu, doğrudan da, çox böyük potensialdır və təkcə Xəzər dənizinin külək enerjisi potensialı 157 qiqavata bərabərdir.

Biz bu gün, doğrudan da, böyük və önəmli işin təməlini qoyuruq. Əminəm ki, stansiya nəzərdə tutulmuş vaxtda inşa ediləcək və həm ölkəmizin enerji potensialını gücləndirəcək, ixrac imkanlarımızı gücləndirəcək və həm də xarici tərəfdaşlarla yeni, gələcək layihələrə yol açacaqdır.

Sağ olun.

* * *

İtaliyanın şirkətlər və "Made in Italy" naziri Adolfo Urso çıxış edərək dedi:

- Son illər ərzində İtaliya ilə Azərbaycan arasında güclü əlaqələri möhkəmləndirən çoxsaylı və mühüm görüşlər ənənəsini daha da inkişaf etdirmək məqsədilə bu gün burada olmaqdan son dərəcə məmnunam. Biz artıq neçənci dəfədir ki, Azərbaycana səfər edirik. Biz Azərbaycanın tarixi dostuyuq və cənab Prezidentin artıq qeyd etdiyi kimi üçüncü nazirdir ki, bu gün Bakıya səfər edir. Müdafiə naziri, energetika naziri və bu gün isə şirkətlər naziri Bakıdadır. Bu, əslində, İtaliya ilə Azərbaycan arasında güclü əlaqələrin olmasını göstərir.

2018-ci ildə İtaliya Prezidenti Sercio Mattarella Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən burada qəbul olunmuşdur. Həmin səfərdən cəmi iki il sonra Azərbaycan Prezidenti 2020-ci ildə Romaya səfəri ilə bizi şərəfləndirdi. Həmin il Azərbaycan mədəniyyətinin İtaliyada mühüm ili oldu və sonra dövlət başçısı yenidən ölkəmizə səfər etdi. Mən isə nazir kimi, - həmçinin Azərbaycana əvvəllər də səfər etmişəm, o vaxt mən xarici ticarət naziri idim, - 2020-ci ildə etdiyim səfərə gəldikdə, bu, mənim məhz ərazilərin işğaldan azad edilməsindən sonra, müharibədən sonra etdiyim ilk səfər idi.

Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə çərçivəsində Bakı ilə Roma arasında xüsusi münasibətlərə böyük inamla yanaşırıq, iki ölkə arasında çoxölçülü strateji tərəfdaşlığa əsaslanan mövcud münasibətlərin, siyasi dialoqun hərtərəfli genişləndirilməsi üçün davamlı və əmin şəkildə çalışırıq.

Ölkələrimiz arasında yaradılmış siyasi anlaşma və dostluğu, eləcə də geniş əhatəsi olan iqtisadi əməkdaşlığın davamlı gücləndirilməsini yüksək dəyərləndiririk. Həmçinin biz energetika sahəsində çalışırıq. İtaliya ilə Azərbaycan arasında tərəfdaşlıq münasibətlərini bundan sonra da gücləndirəcəyik. Biz, həmçinin iqtisadiyyat sahəsində çalışırıq. İtaliya Azərbaycanın birinci ticari tərəfdaşıdır və Azərbaycan İtaliyanın əsas enerji təchizatçılarından biridir. Cənab Prezident burada bizim həyata keçirəcəyimiz layihənin vacibliyini qeyd etdi. Söhbət burada, həmçinin TAP boru kəmərinin buraxılış qabiliyyətinin iki dəfə artırılmasından gedir. Beləliklə, İtaliyaya daha çox təbii qaz daxil olacaqdır.

İki ölkə arasında dostluq əlaqələri və geniş əməkdaşlıq təhsildən tutmuş mədəniyyətədək müxtəlif sektorlarda əməkdaşlığın genişləndirilməsini təmin etmişdir. Bu gün Sizin nəhəng "Azərenerji" şirkəti ilə "Ansaldo" arasında qurulan bu tərəfdaşlıq tarixi bir hadisədir. Bu, həmçinin dövlətin səlahiyyətində olan əlavə imkanlar hesabına təmin ediləcəkdir. "Ansaldo" şirkəti İtaliya sənayesinin mühüm bir hissəsidir, onun tarixi 170 ili əhatə edir. Həmin müəssisə 170 il bundan əvvəl Genuya şəhərində təsis edilmişdir və bu gün onun fəaliyyəti beynəlxalq səviyyədə həyata keçirilir.

Beləliklə, biz yeni bir səhifəni açırıq, enerjiyə, təmiz enerjiyə keçidi təmin etməyə çalışırıq. Qeyd etmək istəyirik ki, "Ansaldo Energia"nın avadanlıqları bu gün dünyanın bir çox yerlərində istismar olunur və onlar etibarlılığına görə universal şəkildə tanınır. Onlar italyan mühəndisliyinin məhsulu olmaqla yanaşı, İtaliyada istehsal edilmiş ən yaxşı mallarımızın mühüm hissəsidir və biz bundan fərəhlənirik. Bu mənada beləliklə, əminəm ki, İtaliyanın bacarıqları Azərbaycanda ətraf mühitə dair qanunvericiliyin qoyduğu tələblər əsasında hamı üçün enerjinin təmin edilməsinə yönəlmiş Sizin milli energetika planınızı müşayiət edəcək ən yaxşı alət olacaqdır.

Enerji bundan sonra da strateji mövzu olaraq qalacaqdır və İtaliya, öz növbəsində, sizin enerjiyə keçid prosesində iştirak etmək istəyir. Əlbəttə ki, bərpaolunan enerji sahəsində layihələrə - günəş və külək enerjisinə gəldikdə, sizin layihələrdə iştirak etmək istərdik və beləliklə, bütöv regionu əhatə edəcək həmin bu enerji imkanlarına öz töhfəmizi verə bilərik.

Öz bacarıqları və təcrübəsi ilə İtaliya gələn illərdə də Azərbaycanın geniş energetika planları üçün etibarlı müttəfiq olacaqdır. Həyata keçiriləcək əməkdaşlığa gəldikdə, əminik ki, biz, həmçinin digər sənaye sahələrində, o cümlədən kənd təsərrüfatı və yeyinti məhsullarının istehsalında sizinlə işləyə biləcəyik. Biz sizin tərəfinizdəyik, istərdik ki, Azərbaycanın inkişafına və Avropanın enerji təhlükəsizliyinə öz töhfəmizi verək.

Mən bu mərasimdə iştirak edənlərin hamısını ürəkdən salamlayıram və demək istəyirəm ki, gələcək nəsillərin tələbatlarını daha geniş şəkildə təmin edəcək dayanıqlı həyat naminə birgə səylərimizi davam etdirəcək, ölkələrimiz arasında dostluğun möhkəmlənməsi üçün növbəti uğurlu addımlarımızı atacağıq. İstərdim ki, İtaliya ilə Azərbaycan arasındakı tərəfdaşlıq Avropada nümunəvi olsun və biz də bu gün sizin tələbatlarınıza cavab vermək istəyirik.

Bu gün keçirilən bu tədbir ölkələrimiz, hökumətlərimiz və xalqlarımız arasında dostluğun rəmzidir. Biz bu gün daha geniş enerji dayanıqlılığının təmin edilməsinə, infrastrukturumuzun genişləndirilməsinə yönəlmiş addımları atırıq.

Cənab Prezident, bu mərasimdə iştirak etdiyinizə görə Sizə təşəkkürümüzü bildiririk. Biz bilirik ki, Sizin hökumətinizlə işləyərək ölkənizə öz töhfəmizi verəcəyik. Sizə uğurlar arzulayıram.

* * *

Sonra İtaliyanın "Ansaldo Energia" şirkətinin prezidenti Cuzeppe Marino və Çinin "Dongfang" şirkətinin baş direktoru Çen Xuacye çıxış edərək, Mingəçevir şəhərində təməli qoyulacaq 1280 meqavatlıq elektrik stansiyasının əhəmiyyətindən söz açıblar.

* * *

Mərasimdə yeni inşa olunacaq İstilik Elektrik Stansiyası barədə videoçarx nümayiş etdirilib.

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev və İtaliya Respublikasının şirkətlər və "Made in Italy" naziri Adolfo Urso stansiyanın təməlini qoyublar.

Sonda birgə foto çəkdirilib.

**AZƏRTAC-ın materialları əsasında**

# Müdafiə Nazirliyində “Media savadlılığı” mövzusunda tədbir keçirilib

*Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin təşkilatçılığı və Medianın İnkişafı Agentliyinin (MEDİA) dəstəyi ilə Şəxsi Heyət Baş İdarəsində "Media savadlılığı" mövzusunda seminar keçirilib.*

Tədbirdə əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi



bütövlüyü uğrunda canlarını fəda edən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Müdafiə nazirinin müvafiq qərarı ilə təsdiq edilmiş nazirliyin Kommunikasiya Strategiyasının icrasına dair "İşçi qrup"unun üzvləri, eləcə də Azərbaycan Ordusunun mətbuat və ictimaiyyətlə əlaqələr üzrə məsul şəxslərinin iştirak etdiyi tədbirdə MEDİA nümayəndələri tərəfindən brifinq təqdim olunub. Kütləvi informasiyanın məzmunu, ötürülməsi və istehlakı üzrə biliyə sahib olma, tənqidi dəyərləndirmə, müxtəlif kontekstlərdə istifadə və təhlil qabiliyyəti barədə müzakirələr edilib.

Tədbirdə Müdafiə Nazirliyinin Kommunikasiya Strategiyasının icrası, o cümlədən mətbuat və ictimaiyyətlə əlaqələr sahəsində görülən işlər, informasiya və rəqəmsal media savadlılığının artırılmasına dair ətraflı fikir mübadiləsi aparılıb.

**İsa İSMAYILOV**
**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**




*Azərbaycan Ordusunun xüsusi qoşun növü olan Hərbi Hava Qüvvələri ötən əsrin 90-cı illərində formalaşıb. Hərbi Hava Qüvvələri (HHQ) 1992-ci il fevralın 14-də ayrıca bölmə kimi təsis olunub və həmin vaxtdan bu tarix Hərbi Hava Qüvvələri Günü kimi qeyd olunur. 1994-cü ildə atəşkəs müqaviləsi imzalandıqdan sonra Azərbaycanda başlanan hərbi islahatlar prosesinin əsasını HHQ təşkil edib. 1997-ci ildə Azərbaycanın Ali Hərbi Təyyarəçilik Məktəbi ilk milli hərbi təyyarəçilərimizin buraxılışına başlayıb.*

Azərbaycanın ilk hərbi pilotu Fərrux ağa Qayıbov olub. O, Birinci Dünya müharibəsində almanlara qarşı keçirilən hava əməliyyatlarında fəal iştirak edib və indiki Belarusiya ərazisində gedən döyüşlərdən birində həlak olub.

Bu gün ən müasir təyyarə və helikopterlə arsenalını zənginləşdirən Hərbi Hava Qüvvələri Azərbaycan səmasını tam gücü ilə qorumağa qadirdir.

Son iyirmi ildə ölkəmizdə müdafiəyə ayrılmış vəsaitlərin əhəmiyyətli hissəsi məhz HHQ-nin gücləndirilməsinə sərf edilib və onun aviaparkı müasirləşdirilib.

Azərbaycan və NATO arasında imzalanmış Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı çərçivəsində “N” hərbi hissəsinin aerodromu modernləşdirilib. Eyni zamanda, hərbi aerodromlarda uçuşların təhlükəsizliyini təmin etmək məqsədilə xüsusi avadanlıqlar quraşdırılıb, texniki təminat binaları yenidən tikilib və təmir edilib.

Azərbaycan Respublikasının dövlət müstəqilliyi bərpa edildikdən sonra HHQ dinamik inkişaf etməkdədir. Beynəlxalq təlimlərdə iştirakı ilə uçuş və döyüş hazırlığını artıran Azərbaycan HHQ pilotları MDB məkanında ən çox uçuş keçirmiş pilotlar sayılırlar. Pilotlarımız, əsasən, Ali Hərbi Təyyarəçilik Məktəbində (hazırda Heydər Əliyev adına Hərbi İnstitutun Hərbi Hava Qüvvələri fakültəsində) hazırlanır, Türkiyə və digər ölkələrin müvafiq ixtisasartırma kurslarında və təlimlərdə iştirak edirlər.

HHQ kifayət qədər peşəkar zabit kadrlarına malikdir. Gənc zabitlərin digər ölkələrdə təşkil olunan beynəlxalq təlim və kurslarda iştirakı, hərbi akademiyalarda təhsil almaları da onların peşəkarlığının artırılmasına yönəlib.

Qardaş Türkiyə Respublikası ilə HHQ-nin təlimləri Azərbaycan hərbi pilotlarının NATO standartlarının öyrənilməsini, onların döyüş hazırlıqlarının artırılmasını və ikitərəfli əlaqələri daha da yaxınlaşdırıb.

HHQ-nin peşəkar pilotları Türkiyədə və Azərbaycanda keçirilən “TurAz Qartalı” təlimlərində iştirak etməklə yanaşı, yüksək səviyyəli paradlarda da iştirak edərək öz təcrübə və bacarıqlarını nümayiş etdirirlər.

Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə 2018-ci il iyunun 26-da Bakının Azadlıq meydanında keçirilən hərbi paradda 240-dan çox hərbi texnika, gəmilər, silahlanmaya yeni qəbul edilmiş ən müasir zirehli texnikalar, raket və artilleriya qurğuları, 70-dən artıq uçuş vasitəsi, hava hücumundan müdafiə sistemləri, helikopterlər, pilotsuz uçuş aparatları kimi müxtəlif növ ən yeni silah və texnikalar nümayiş olundu. Həmin paradda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev deyib: "Son illər ərzində ən müasir texnika və silahlar alınıbdır. Onların arasında yüzlərlə zirehli texnika, bir çox gözətçi gəmiləri, hərbi gəmilər, hava hücumundan müdafiə sistemləri, ən müasir standartlara cavab verən sistemlər, onlarla döyüş təyyarəsi, yüzdən çox döyüş, hərbi nəqliyyat, nəqliyyat helikopteri, ən müasir kəşfiyyat və döyüş pilotsuz uçuş aparatları, ən müasir artilleriya qurğuları, uzaqmənzilli raketlər, yaylım atəşli raket sistemləri, əməliyyat-taktiki raket kompleksləri - bütün bunlar bizim hərbi gücümüzü artırır. Deyə bilərəm ki, ordunun maddi-texniki təchizatı baxımından Azərbaycan dünya miqyasında nadir ölkələrdən biridir".

2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı keçirilib. Bu paradda Hava Hücumundan Müdafiə silahları sistemləri kolonunun keçidi də oldu. Kolona müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı, "Zəfər" ordenli general-leytenant Ramiz Tahirov başçılıq etdi.

Həmin paradda Azadlıq meydanı üzərində Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus döyüş təyyarələrinin və helikopterlərin uçuşu oldu. "Qarabağ" ordenli polkovnik Həsən Əlövsətovun rəhbərlik etdiyi "Mİ-17" hərbi nəqliyyat-desant helikopterləri cütlüyü Azərbaycan və Türkiyənin dövlət bayraqları ilə Bakı buxtasının üzərindən uçaraq Zəfər paradının iştirakçılarını salamladı. Bunun ardınca Vətən Müharibəsi Qəhrəmanı polkovnik-leytenant Rəşad Nadirovun başçılığı ilə "Mİ-35" hücum helikopterləri qrupunun, polkovnik-leytenant Rəhim Quluzadənin başçılığı ilə "Mİ-17" helikopterlərinin və "Qarabağ" ordenli polkovnik Zaur Rüstəmovun rəhbərliyi ilə "MiQ-29" qırıcı təyyarələr qruplarının uçuşları da Azərbaycan Ordusunun hərbi aviasiyasının qüdrəti kimi izləndi. Zəfər paradında döyüş təyyarə və helikopterlərinin çıxışını müasir silahlarla təchiz olunmuş "Su-25" hücum və hava dəstək təyyarələr qrupu tamamladı. Vətən Müharibəsi Qəhrəmanı general-mayor Namiq İslamzadənin başçılıq etdiyi qrupun səmada Azərbaycanın Dövlət bayrağının təsvirini yaratması üçrəngli şanlı bayrağımızın daim yüksəklərdə dalğalanacağının zəmanəti idi.

Azərbaycan Hərbi Hava Qüvvələrinin "Su-25" və "MiQ-29" qırıcı təyyarələri və hərbi helikopterləri ötən ilin mayında "TEKNOFEST Azərbaycan"da pilotaj uçuşlarını həyata keçirib, hava şousu nümayiş etdiriblər.

2016-cı ilin Aprel döyüşlərində Mi-24 helikopterinin üç pilotu - Təbriz Musazadə, Əbu Bəkir İsmayılov və Urfan Vəlizadə qəhrəmancasına şəhid oldular. Vətən müharibəsində isə polkovnik Zaur Nudirəliyev, polkovnik-leytenant Ramiz Qasımov şəhadətə yüksəldilər.

Hava şahinlərimizin, pilotlarımızın İkinci Qarabağ müharibəsində Qələbənin qazanılmasında böyük rolu oldu. HHQ-nin hərbi qulluqçuları qəhrəmanlıq və şücaət nümunələri göstərdilər. Vətən müharibəsində HHQ tərəfindən düşmənin hava hücumundan müdafiə sistemini məhv etmək məqsədilə "Qarabağ mücrüsü" adlı xüsusi əməliyyat planı hazırlanmışdı. Bu, hərbçilərimizin düşmənin fikrini yayındırmaq üçün müxtəlif variantı idi. Düşmənin bütün növ zenit-raket komplekslərini işə salmağa vadar etmək üçün mövcud aviasiya vasitələri havaya qaldırılıb kütləvi aviasiya zərbəsi imitasiya edildi. Bu imitasiya düşmənin zenit-raket komplekslərinin məhvetmə zonasına daxil olmadan müxtəlif manevrlər etdilər. İkinci tədbir kimi, düşmənin fəndi başa düşməməsi üçün Dövlət Sərhəd Xidmətinə məxsus, göyərtəsində pilot olmayan AN-2 təyyarələri düşmənin zenit-raket komplekslərinin məhvetmə zonasına yönləndirildi. Plan uğurla icra olundu və Vətən müharibəsinin ilk günlərində Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarının birgə fəaliyyəti nəticəsində düşmənin hava hücumundan müdafiə sistemlərinin 70 faizi sıradan çıxarıldı. Zərbə dronları düşmən hədəflərini qısa müddətdə məhv edib.

İkinci Qarabağ müharibəsində bir neçə pilotumuz Vətən Müharibəsi Qəhrəmanı adı ilə mükafatlandırıldı. İki nəfər bu ada ölümündən sonra layiq görüldü.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə ordu quruculuğu sahəsində həyata keçirilən genişmiqyaslı islahatlar Hərbi Hava Qüvvələrini də əhatə edir. Bu islahatlar çərçivəsində yüksək pilotaja malik pilotlar hazırlanır. Bu gün dövlətimizin başçısının diqqət və qayğısı sayəsində şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı yüksəldilir, aviabazaların maddi-texniki təminatı gücləndirilir, uçuş və texniki heyətin sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində mühüm işlər görülür.

HHQ-nin şəxsi heyəti bundan sonra da Ali Baş Komandanın istənilən döyüş əmrini hər an yerinə yetirməyə hazırdır.

**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunda andiçmə mərasimləri keçirilib



Azərbaycan Respublikasının müdafiə nazirinin təsdiq etdiyi 2023-cü il üçün hazırlıq planına uyğun olaraq, fevralın 12-də Azərbaycan Ordusunda gənc əsgərlərin andiçmə mərasimləri keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, mərasimlərdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların, eləcə də qardaş Türkiyədə baş verən zəlzələ nəticəsində həyatını itirən bacı və qardaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Mərasimlərdə gənc əsgərlər təntənəli surətdə Hərbi andı qəbul edib, Vətənə sadiq olacaqlarına və layiqli xidmət edəcəklərinə söz veriblər.

Müdafiə Nazirliyinin nümayəndələri və hərbi hissələrin komandanlıqları gənc əsgərləri Hərbi andı qəbul etmələri münasibətilə təbrik edib, onlara xidmətdə nizam-intizamlı olmağı, silah və texnikanı dərindən öyrənməyi, Vətənin keşiyində ləyaqətlə dayanmağı arzulayıblar.

Sonda şəxsi heyət tribuna önündən təntənəli keçid edib.

* * *

“N” hərbi hissəsində keçirilən mərasimdə çıxış edən polkovnik Mahmud Əmirov gənc əsgərləri təbrik edərək Hərbi andın mənasını, and içən hərbi qulluqçuların üzərinə düşən şərəfli və məsul vəzifələri xatırladıb.

Əsgərlər hərbi and içərək, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqlarına, bundan ötrü canlarını belə əsirgəməyəcəklərinə söz veriblər.

Gənc əsgər Qalib Zeynalov çıxışında hərbi xidmətə zəfər və mübarizə əzmi ilə gəldiyini bildirib, əsgər yoldaşlarına xidmətlərində uğurlar arzulayıb.

Valideynlər adından çıxış edən Ruslan Zeynalov sırada dayanan hər bir Vətən övladının peşəkar döyüşçü və bacarıqlı əsgər kimi formalaşacaqlarına, üçrəngli bayrağımızın dalğalandığı istənilən ərazidə qürurla, qətiyyətlə xidmət edəcəklərinə inandığını bildirib.

General-mayor Rəhim Cəfərov Əlahiddə Ümumqoşun Ordu komandanı general-polkovnik Kərəm Mustafayevin təbrikini şəxsi heyətə çatdıraraq bildirib ki, andiçmə mərasimi hər bir əsgərin həyatında unudulmaz və yaddaqalan günlərdən biridir.

Qeyd olunub ki, hərbi xidmətə yenicə qədəm qoyan gənc əsgərlərə ixtisaslarına uyğun təlim və məşğələlər keçirilir. Hərbi hissədə olan müasir şərait məşğələlərin səmərəli təşkilinə zəmin yaradır. Yanvar ayında ordu sıralarına daxil olan gənclərimiz də peşəsinin incəliklərinə yaxşı bələd olan peşəkar komandirlər tərəfindən keçirilən məşğələlərdə hərbi bilik və vərdişləri həvəslə öyrənəcək, yüksək döyüş hazırlıqlı hərbi qulluqçu kimi formalaşaraq Vətənə, xalqa, dövlət və dövlətçiliyimizə sonsuz sədaqətlə xidmət edəcəklər.

* * *

Zəfərdən sonra gənc əsgərlərin Hərbi andiçmə mərasimləri daha yüksək ovqatla keçirilir. Bu, Azərbaycan Ordusuna daha yüksək sevgiyə, daha böyük inama gərədir.



Hərbi andiçmə günü təkcə gənc əsgərlər və onların əzizləri üçün deyil, cəmiyyət üçün də tarixi gündür. Bir azdan adi bir gün ömürlərdə, xatirələrdə tarixləşəcək...

Ənənəvi vacib rituallardan sonra polkovnik-leytenant Tariyel Abdullayev tədbiri açıq elan etdi.

General-mayor Vasif Kazımov gənc əsgərləri Hərbi andiçmə münasibətilə təbrik etdi, onlara xidməti uğurlar arzuladı, Quru Qoşunları komandanının təbrik məktubunu çatdırdı. Bu gün Hərbi and içən əsgərlərə ünvanlanmış məktub tövsiyədir, inamdır, etibardır. Hərbi and içmiş əsgərlər komandanın tövsiyələrini Hərbi anda sədaqətlə yerinə yetirəcəklər, tövsiyələrə məsuliyyətlə əməl edəcəklər, inamı Vətənə sevgiləriylə davam etdirəcəklər. Hərbi and içmiş gənc əsgərlərin baxışlarından "Biz 2020-ci ilin 8 noyabrında Zəfər qazanan döyüşçülərin davamçıları kimi Azərbaycan Respublikası Prezidentinin əmrlərini dövlətə, dövlətçiliyə böyük sədaqətlə yerinə yetirəcəyik!.." - qətiyyəti oxunurdu...

Polkovnik-leytenant Tural Abdullayev hərbi hissənin şəxsi heyətinin İkinci Qarabağ müharibəsində iştirakından, döyüşlərdən, şəhidlikdən, şəhidlərdən söz açdı, bu gün Hərbi and içən əsgərlərin qüdrətli Azərbaycan Ordusunun sıralarında nümunəvi xidmətlərilə ordumuzun döyüş hazırlığının yüksəldilməsinin iştirakçılarından olacaqlarına əminliyini bildirdi.

Gənc əsgər babası Sənan Orucov bu gün Hərbi and içənlərə xitabən dedi ki, siz bu günün yetirdiyi mənəvi ucalığı illər keçdikcə böyük sevgilərlə xatırlayacaqsınız. Babalarınız da belə xatırlayıb, atalarınız da. Hamınızı nəvəm bilirəm. İnanıram ki, nəvələrim atalarını, babalarını yaxşı xidmətləri ilə sevindirəcəklər...

Şəhid anası Namizəd Mikayılova çıxışında oğlu Hamletin döyüşlərdə şəhadətə ucaldığını bildirdi. Dedi ki, o biri oğlunun oğlu şəhid əmisinin ruhunu da sevindirəcək - nümunəvi xidmət edəcək. Bu gün o da Hərbi and içdi. Hərbi and içənlərin hamısını təbrik edirəm.

Birinci Qarabağ müharibəsi iştirakçısı Azər Quliyev bu hərbi hissədə xidmət etdiyindən, bu xidmətin sonrakı xidmətlərinə mənəvi başlanğıc olmasından, bu hərbi hissənin əsgər və zabitlərinin İkinci Qarabağ müharibəsində iştirakından, döyüşlərindən danışdı, gənc əsgərlərə xidmətlərində uğurlar arzuladı.

Gənc əsgər Həbib Zeynallı çıxışında İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusunun qazandığı tarixi Zəfərdən, bu Zəfərin çağırışçıların, xidmətə başlayan əsgərlərin mənəvi-psixoloji hazırlığını yüksəltməsindən danışdı. Quru Qoşunlarının komandanlığını, hərbi hissənin rəhbərliyini, tədbir iştirakçılarını əmin etdi ki, Hərbi andın tələblərini məsuliyyətlə yerinə yetirəcəklər.

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

Soyuq qış günü olsa da, hərbi hissədə isti ovqat hökm sürürdü. Bu ovqatı yaradan gənc əsgərlərin Hərbi andı qəbul etmələri idi. Əvvəlcə şəxsi heyətin mərasim münasibətilə düzüldüyü barədə hərbi hissə komandirinə məruzə olundu. Komandir şəxsi heyətlə salamlaşdıqdan sonra gənc əsgərləri bu müqəddəs gün münasibətilə təbrik etdi.



Hərbi hissənin döyüş bayrağı təntənəli surətdə sıra meydanına gətirildi. Komandirin əmri ilə gənc əsgərlər nizami addımlarla meydandakı masalara yaxınlaşaraq Hərbi andı qəbul etməyə başladılar. Əsgərlərin ətrafa yayılan gur səsi eşidənlərə xoş anlar yaşatdı.

Gənc əsgərlər Hərbi andı qəbul edəndən sonra çıxışlar başladı. Polkovnik-leytenant Vüqar Abdulov Müdafiə nazirinin müavini - Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanovun gənc əsgərlərə ünvanladığı təbrik məktubunu oxudu. Məktub bu sözlərlə yekunlaşırdı: "Hərbi andın qəbulu münasibətilə sizlərin hər birinizi səmimi-qəlbdən təbrik edir, möhkəm cansağlığı, qarşıdakı çətin və şərəfli xidmətinizdə uğurlar arzulayıram".

Polkovnik-leytenant Aqil İsmayılov çıxışı zamanı dedi ki, siz xoşbəxt əsgərlərsiniz. Çünki qalib ordunun sıralarında xidmət edirsiniz. Bilirsiniz ki, İkinci Qarabağ müharibəsində böyük qəhrəmanlıq göstərən Azərbaycan Ordusunun zabit və əsgərləri erməni qəsbkarlarına qalib gələrək Zəfər qazandılar. Uzun illər düşmən işğalında qalmış torpaqlarımızı azad etdilər. İşğalçılar üzərində qələbənin qazanılmasında xidmət edəcəyiniz hərbi hissənin zabit və əsgərləri də Vətən müharibəsində böyük qəhrəmanlıq göstəriblər. İnanıram ki, Hərbi anda həmişə sadiq qalacaq, üzərinizə düşən tapşırıqların öhdəsindən bacarıqla gələcəksiniz.

Kapitan Anar Rəhimli də gənc əsgərləri xoş sözlərlə təbrik edərək dedi ki, bu gün hər biriniz üçün çox əlamətdardır. İnanıram ki, bu günü daim xoş ovqatla xatırlayacaqsınız, xidmətinizin sonunadək andınıza sadiq qalacaq, daim döyüş hazırlığınızı artıracaq, verilən bütün tapşırıqları yerinə yetirməyə hazır olacaqsınız.

Əsgər atası Miryaqub Nağıyev də Vətənə sədaqət andı içən gənc əsgərləri təbrik etdi, onlara uğurlar arzuladı.

Gənc əsgər Famil Əmirov içdikləri Hərbi anda həmişə sadiq qalacaqlarını, torpaqlarımızın keşiyində həmişə ayıq-sayıq dayanacaqlarını bildirdi.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

Hərbi Dəniz Qüvvələrində xidmət edən gənc matroslar da ilkin hazırlıq dövrünü başa vurub Vətənə, xalqa şərəflə xidmət edəcəklərinə and içmək üçün sıra meydanında düzülmüşdülər. Ölkəmizin ayrı-ayrı bölgələrindən gələn əsgər valideynləri nəzarət-buraxılış məntəqəsində andiçmə mərasiminin başlanacağı anı səbirsizliklə gözləyirdilər. Çox keçmədi ki, valideyn izdihamı hərbçilərin müşayiəti ilə sıra meydanının qarşısında qərarlaşdı.

1-ci dərəcəli kapitan Həbib Xəlilov gənc matrosların Hərbi andının qəbul edilməsi münasibətilə düzüldüyü barədə 1-ci dərəcəli kapitan Teymur Mürşüdova məruzə etdi. Hərbi Dəniz Qüvvələrinin bayrağı silahlı qarovul dəstəsinin müşayiəti ilə sıra meydanına gətirildi.

Tədbirdə çıxış edən 1-ci dərəcəli kapitan T.Mürşüdov Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Azərbaycan Ordusunun yaradılmasında əvəzsiz xidmətlərindən söz açdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ulu Öndərin siyasi kursunu layiqincə davam etdirdiyini, ordu quruculuğuna mühüm töhfələr verdiyini qeyd etdi. "Otuz ilə yaxın Ermənistan ordusu torpaqlarımızı işğal edərək öz nəzarəti altında saxladı. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin əmri ilə 27 sentyabr 2020-ci il tarixində rəşadətli Azərbaycan Ordusu əks-hücum əməliyyatı həyata keçirdi. 44 gün ərzində erməni silahlı birləşmələrini darmadağın edərək düşməni kapitulyasiya aktını imzalamağa məcbur etdi".

Çıxış edən digər zabitlər hər bir matrosa döyüş bacarıqlarını aşılamağın vacibliyini vurğuladılar. Əminliklə qeyd olundu ki, matroslar istənilən təhlükəni vaxtında dəf etməyə hazır olacaqlar.

Gənc matroslar adından çıxış edən Orxan Ağazadə dedi ki, bu gün onların həyatında ən əlamətdar gündür. "Çünki bizlər Hərbi andı qəbul etməklə müstəqil dövlətimizin ordu sıralarına daxil olduq. İçdiyimiz anda sadiq qalaraq komandirlərin əmr və tapşırıqlarını vaxtında, dəqiq yerinə yetirəcəyik".

Sonra valideynlər adından Heydər Bəylərova söz verildi. O, Vətənə sədaqətlə xidmət edəcəklərinə and içən gənc matrosları təbrik etdi. Onlara Vətən qarşısında şərəflə, ləyaqətlə xidmət etməyi arzuladı.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Əsgərlərin siyasi məlumatlandırılması vacibdir



"N" hərbi hissəsində təsdiq olunmuş günün nizam qaydalarına uyğun olaraq kapitan Mərifət Hüseynov tərəfindən şəxsi heyətlə siyasi məlumatlandırma aparıldığının canlı şahidi olduq. Ölkədə və regionda baş verən mühüm hadisələri şəxsi heyətə çatdırdıqdan sonra zabitin fikirlərini öyrəndik. O bildirdi ki, müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana uyğun olaraq hərbi hissələrdə şəxsi heyətin maarifləndirilməsi üzrə tədbirlər uğurla davam etdirilir. "Məşğələlərdə Ali Baş Komandanın çıxışlarında Azərbaycan Ordusu haqqında səsləndirdiyi fikirlər şəxsi heyətə çatdırılır. Həmçinin 44 gün ərzində rəşadətli ordumuz tərəfindən azad edilən ərazilərin tarixindən və Vətən müharibəsi zamanı cəsur oğullarımızın göstərdikləri qəhrəmanlıq nümunələrindən söhbətlər edilir. Hərbi qulluqçularla keçirilən tərbiyəvi iş və siyasi məlumatlandırma saatlarında, eləcə də asudə vaxtlarda maarifləndirici söhbətlər, ətraflı fikir mübadiləsi aparılır, onları maraqlandıran suallar cavablandırılır və xidmətləri ilə bağlı lazımi tövsiyələr verilir".

Zabit M.Hüseynov əlavə etdi ki, bütün fəaliyyətlər komandirlərin nəzarəti altında həyata keçirilir. "Əsgərlər də keçirilən bütün dərs və məşğələlərə həvəslə yanaşır, öyrədilənləri dərindən mənimsəyirlər. Keçirilən dərs və aparılan maarifləndirici söhbətlərin nəticəsidir ki, xidmət edən bütün şəxsi heyət üzərinə düşən vəzifələrin və Ana Vətəninə olan övladlıq borcunun məsuliyyətini yaxşı dərk edir. Zabitlər də öz növbəsində əsgərlərimizin bütün qayğı və problemləri ilə yaxından maraqlanırlar. Çünki onların hər biri bizlərə valideynlərindən əmanətdir".

Əsgər Nicat Məlikov bildirdi ki, komandirlərimiz tərəfindən keçirilən siyasi məlumatlandırma saatlarında hər birimiz ölkəmizdə və regionda baş verən vacib hadisələri, Ali Baş Komandan İlham Əliyevin və müdafiə naziri general-polkovnik Zakir Həsənovun bütün rəsmi görüşlərini və digər mühüm xəbərləri öyrənirik. Həmçinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən bu ilin Azərbaycan xalqının Ümummilli Lideri "Heydər Əliyev İli" elan edilməsi münasibətilə hərbi hissəmizdə mütəmadi olaraq tədbirlər keçirilir, dahi şəxsiyyətin həyat və fəaliyyəti barədə söhbətlər edilir və ətraflı məlumatlar verilir. Hərbi hissədə yaradılan şəraitdən söz açan həmsöhbətim dedi ki, Ali Baş Komandanın göstərdiyi diqqət və qayğı nəticəsində bütün sosial-məişət şəraitimiz yüksək səviyyədədir. "Müasir standartlara cavab verən yataqxana, ideoloji otaq, ən son model avadanlıqlarla təchiz olunan qazanxana və camaşırxana, lazımi idman alətləri ilə təmin olunan idman şəhərciyi istifadəmizə verilib. Bizim üzərimizə düşən vəzifə isə xidmətimizi düzgün təşkil edib, hərbin sirlərinə dərindən yiyələnərək, döyüş qabiliyyətimizi artırmaqdır. İnanıram ki, üzərimizə düşən vəzifənin öhdəsindən bacarıqla gəlib, Azərbaycan əsgəri adına layiq olacağıq".



Əsgər Nurəli Salmanov da əsgər yoldaşı Nicat Məlikovla söhbətimizə qoşularaq, siyasi məlumatlandırmanın əhəmiyyətindən danışdı. Bildirdi ki, günün nizam qaydasına uyğun olaraq hər həftənin çərşənbə axşamı və cümə axşamı səhər yerbəyerindən əvvəl komandirlərimiz bizə siyasi məlumatlandırma keçirlər. Bu tədbirin əhəmiyyəti olduqca vacibdir. Çünki biz bu tədbirin sayəsində hər şeydən məlumatlı oluruq, ölkəmizdə, regionda və qardaş ölkəmizdə baş verən ən son hadisələri izləyir və öyrənirik. Bu arada qardaş Türkiyə Respublikasında baş verən təbii fəlakət nəticəsində dünyasını dəyişənlərə Allahdan rəhmət, yaralananlara isə şəfa diləyirik.

**Kapitan**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

# Qardaş Türkiyəyə yardımlar davam edir



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, Türkiyədə baş vermiş zəlzələdən zərər çəkən insanlara dəstək tədbirlərinin icrası davam etdirilir.

Müdafiə Nazirliyinin Maddi-Texniki Təminat Baş İdarəsinin təminat bazasından qış səhra çadırları, ədyallar, çarpayılar, yataq kisələri, qızdırıcılar, elektrik generatorları və digər zəruri əşyalardan ibarət növbəti yardım və fasiləsiz elektrik enerjisinin təminatı məqsədilə Mühəndis Qoşunlarının təminatından qardaş ölkəyə yüksək gərginlikli generatorlardan ibarət yardım yükü avtomobil və hava nəqliyyatı vasitəsilə göndərilib.

Eləcə də, Türkiyə Səhiyyə Nazirliyinin və Türkiyə Silahlı Qüvvələrinin nümayəndələri ilə koordinasiyalı şəkildə hərbi həkimlərimiz növbəti 8 cərrahi əməliyyatı uğurla icra edib, zərərçəkmiş 62 nəfərə ambulator yardım göstəriblər.

Ümumilikdə Azərbaycan Ordusunun təcrübəli tibb personalı tərəfindən 25 cərrahi əməliyyat icra olunub, baş vermiş zəlzələdən zərərçəkən 196 nəfəri isə müayinə edilərək onlara ambulator yardım göstərilib.

Zəlzələdə xəsarət alan insanlara tibbi yardımın göstərilməsi, onların tezliklə sağalaraq normal həyata qayıtması üçün hərbi tibb personalımız qardaş ölkədə yüksək peşəkarlıqla fəaliyyətini davam etdirir.

**"Azərbaycan Ordusu"**

*Gənc zabitlərimiz*

# Hər zaman Vətən keşiyində

"Hər bir xalq özünün xoşbəxt gələcəyi olan ümidlərini, ilk növbədə, gənc nəsillə bağlayır. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının, ölkənin çiçəklənməsinin rəhnidir. Bu gün iftixar və qürur hissi ilə bildirmək istəyirəm ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi indi də qoruyub yaşadır". Azərbaycanda gənclər siyasətinin banisi Ulu Öndər Heydər Əliyevin bu kəlmələrinin nə dərəcədə dərin məna kəsb etdiyini hamımız bilirik. Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunub saxlanılması, dövlətin inkişafı və möhkəmlənməsi gənclərin əlindədir. Ali Baş Komandanın gənclərə göstərdiyi diqqət və qayğı da hər zaman göz qabağındadır.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iştirak etdiyi forumlarda, tədbirlərdə gənc nəslin dövlətimizin inkişafında mühüm rol oynadığını vurğulayır. Həmçinin orduda da gənc kadrların ixtisaslaşmasının və peşəkar zabit kimi formalaşmasının mühüm proses olduğunu diqqət mərkəzinə gətirir.

Hərbçilərimizin Vətən müharibəsində göstərdiyi mərdlik və şücaət dövlət rəhbərliyinin göstərdiyi diqqət və qayğı sayəsində formalaşan ordunun peşəkarlığının təzahürü idi. Vətən müharibəsi iştirakçıları ilə həmsöhbət olarkən müharibədən əvvəl və sonra görülən işlərin ordunun gücləndirilməsinə xidmət etdiyini vurğulayırlar.



Baş leytenant İlkin Quliyev də 44 günlük haqq savaşının iştirakçısıdır. Zabit dedi ki, hərbi peşəyə yiyələnmək uşaqlıq xəyalı olub. "Məktəb illərində hərbi peşəyə marağım yaranmışdı. Atam Birinci Qarabağ müharibəsi iştirakçısıdır. Kiçik yaşlarımda atamın və onun döyüş yoldaşlarının Birinci Qarabağ müharibəsi haqqında xatirələrini dinləyərdim. Atam mənə deyərdi: "Oğul, bu hələ son deyil, Qarabağımızın taleyi sənin kimi gənc, cəsur Vətən oğullarının göstərdiyi qəhrəmanlıqlarla həll olunacaq. Əminəm ki, məhz sizin kimi igidlər ərazi bütövlüyümüzü bərpa edəcəklər". Atamın sözlərindən sonra qərara aldım ki, zabit olum. Başa düşürdüm ki, bu yol çətindir, amma şərəflidir. Yolumun başlanğıc nöqtəsi isə Heydər Əliyev adına Hərbi Lisey oldu. Buranı müvəffəqiyyətlə bitirdikdən sonra, 2015-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (İndiki Heydər Əliyev adına Hərbi İnstitut) qəbul oldum və burada rabitəçi ixtisasına yiyələndim.

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələri növbəti genişmiqyaslı təxribat törətməyə cəhd etdi. Ali Baş Komandanın əmri ilə əks-hücum əməliyyatı başlandı. Mən də Vətənə olan borcumu ödəmək üçün silahdaşlarımla birlikdə döyüşə yollandım. Qızğın savaş gedirdi. Biz haqq üçün döyüşürdük, ana Vətən uğrunda döyüşürdük. Torpaqlarımızı düşməndən addım-addım azad edirdik. Cəbrayıl, Qubadlı, Zəngilan istiqamətlərində gedən döyüşlərdə iştirak etdim. Fəxr edirəm ki, mən də Zəfər tarixinin bir hissəsi oldum".

Onu da qeyd edim ki, gənc zabit ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda gedən döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Söhbətimizin sonunda gənc zabit dedi: "Bu tarixin bir hissəsi olan, bu qələbəni bizə bəxş edən şəhidlərimiz var. Məhz Vətənimizin keşiyində bu cür dayanan mərd oğullarımızın canı, qanı bahasına torpaqlarımız azaddır. Onların ruhunu daim yad etməliyik, onları qəlbimizdə yaşatmalıyıq və gənc nəsillərə tanıtmalıyıq. Daim "Şəhidlər unudulmaz" şüarı ilə yaşamalıyıq. Bu, şəhidlərin ruhlarına olan mənəvi borcumuzdur".

**Leytenant**
**Elvin VƏTƏNDUST**
**"Azərbaycan Ordusu"**

*Tarix yazan oğullar*

# Haqqa qovuşan Vətən oğlu

*2020-ci il sentyabrın 27-də Vətənin müdafiəsinə qalxan və şəhidliyi ilə əbədiyyətə qovuşan oğullardan biri də Kamran idi. Onun da qəlbində bitib-tükənməyən arzuları vardı... Lakin söhbət "Vətəndirsə, gerisi təfərrüatdır" müdrik deyimini özünə müqəddəs şüar seçən Kamran 30 ilə yaxın müddətdə Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunan tarixi torpaqlarımız uğrunda döyüşlərə atılır. Onun şərəfli döyüş yolu Füzuli rayonundan başlayır. Bütün hazırlıqları yüksək olan peşəkar Azərbaycan əsgəri döyüşlərdə düşmənə sarsıdıcı zərbələr vurur.*



Vətənin igid oğlu oktyabrın 22-nə kimi Füzuli, Xocavənd, Zəngilan, Qubadlı uğrunda gedən döyüşlərdə fəal iştirak edir. Kamran şəxsi heyətin döyüş əzmini daha da yüksəltmək məqsədilə həm xalqımızın döyüş, müharibə tarixindən danışır, həm də müqəddəs kitabımız Qurani-Kərimdən ayələr səsləndirirdi. Gözəl səsi, xoş avazı ilə işğaldan azad olunmuş torpaqlarımızda azan da verirdi. Kamran çox yaxşı bilirdi ki, çıxdığı yol haqq yoludur. O, bu müqəddəs yolda "ölmək var, dönmək yoxdur" deyərək, haqqa ucalıb, müqəddəsliyə tapınaraq son damla qanınadək döyüşür. Kamran döyüşürdü ki, Xocalıda qana boyanan körpələrin - Farizin, Zəhranın, neçə-neçə azərbaycanlının qisasını alsın. Qisas qiyamətə qalmadı. Azərbaycanın Kamran kimi mərd oğulları erməni işğalçılarını torpaqlarımızdan qovaraq məhv etdilər.

Vətən sevdalısı Kamran İsgəndərli oktyabrın 21-dən 22-nə keçən gecə Qubadlı rayonu uğrunda gedən ağır döyüşlərdə şəhidlik zirvəsinə yüksəlir. Vətənə, torpağa, elə, obaya, valideynlərinə, bacılarına bağlı olan Kamran doğma Cəlilabad rayonunda dəfn olunur.

Kamran qısa, lakin şərəfli ömür yolu ilə tarixin yaddaşına əbədi həkk olunur.

Əsgər İsgəndərli Kamran Yaşar oğlu 29 iyun 1997-ci ildə Cəlilabad rayonunda dünyaya göz açmışdı. İki bacının tək qardaşı olan şəhid ailənin, nəslin sevimlisi idi. Orta məktəb illərində dəqiq elmləri sevir, yaxşı oxuyurdu. Ailədə İslam dininə sonsuz sayğını görən Kamran müsəlman dünyasının müqəddəs kitabı Qurani-Kərimi oxumaq üçün ərəb dilini öyrənir. Orta məktəbi başa vurduqdan sonra Azərbaycan Texniki Universitetinə daxil olur. O, burada "Telekommunikasiya, radio və texniki informasiya mühəndisliyi" ixtisası üzrə ali təhsil alır və ingilis, ərəb dillərinə mükəmməl yiyələnir. İxtisası üzrə peşəkar mütəxəssis kimi yetişir.

2019-cu il oktyabrın 2-də Vətənə övladlıq borcunu yerinə yetirmək üçün hərbi xidmətə yollanır. Xidmət dövründə komandirlərinin, əsgər yoldaşlarının hörmətini qazanır. Dəfələrlə komandanlıq tərəfindən fəxri fərmana layiq görülür, təşəkkür elan olunur. Vətən müharibəsi başlayanda Kamran da döyüşə gedənlərin sırasında dayanır.

Şəhidin atası Yaşar müəllim, anası Qətibə xanım, bacıları Kamranla bağlı xatirələrini bizimlə bölüşdülər. Kamranın divardan asılmış şəkillərindən boylanan nur üzlü çöhrəsi sanki ətrafı işıqlandırmışdı. Əsgər geyimi, şəxsi əşyaları, idmanda qazandığı kuboklar, fəxri fərmanlar, qələmə aldığı şeir parçaları və digər əşyalar Kamrandan doğmalarına, əzizlərinə qalan təsəlli və şirin xatirələrdir...

Yaşar müəllim deyir ki, bir ata kimi Kamranla hər zaman fəxr edib. "Çətindir, bu ağır yükü, oğul dərdini çiyində daşımaq. Amma bu ölüm sıradan bir ölüm deyil, Vətənimizin, torpaqlarımızın azadlığı uğrunda müqəddəslik zirvəsini fəth edən ölümdür, şəhadətə qovuşmaqdır. Bütün şəhid valideynlərinə Allahdan səbir diləyirəm".

Qətibə ana Kamranın hərbi xidmətdən evə sağ-salamat qayıtmasına qurban deyir. Ananın dediyi qurbanın kəsilməsinə dörd gün qalmış Kamran ən qaynar nöqtəyə - Füzuli cəbhəsinə yola düşür...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə Kamran İsgəndərli 44 günlük Vətən müharibəsində göstərdiyi şücaətə və fədakarlığa görə "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Vətən uğrunda" medallarına layiq görülüb.

Kamran haqqa ucaldı, müqəddəsliyə tapındı, adını Zəfər tariximizin səhifələrinə yazdı və gələcək nəsillərə örnək şərəfli ömür yaşadı.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Türkman Vətəninə sadiq oğul idi



Bir vaxtlar Qarabağ həsrətindən dolan gözlərin nuru artıb, yanan ürəklər indi sevinclə silələnib. Bu xoşbəxtliyi gözlərimizə, ürəyimizə Azərbaycan əsgəri yetirib. Həmin igidlərdən biri də əsgər Türkman Yolçu oğlu Məmmədovdur.

Türkmanın valideynləri ilə görüşmək üçün böyüyüb boya-başa çatdığı evə yollanırıq. Uzaqdan görünən bayrağa görə mənzili asanlıqla tapırıq.

Görüşüb hal-əhval tutur, söhbətləşirik. Valideynləri deyirlər ki, Azərbaycan xalqı qədirbiləndi. Şəhidini, qəhrəmanını heç vaxt unutmur. Qonşular, yaxınlar, dövlət nümayəndələri tez-tez onlara gəlir, Türkmanı sevgi və hörmətlə yad edirlər.

Mənzilin hər guşəsində şəhidin portretlərini görürük. O, xatirələrdə və şəkillərdə hələ iyirmi iki yaşındadı. Adına ad olan qürur, ehtiram yaşından böyükdü. Fəxri fərmanlar, diplomlar, idmanda qazandığı medallar otağın eksponatlarıdı. Vətən müharibəsində göstərdiyi qəhrəmanlıqlara görə aldığı medallar şəhidin qəhrəmanlığının sənədləridi...

Türkman 28 sentyabr 1998-ci ildə Gədəbəy rayonunun Hacılar kəndində anadan olub. İki qız övladından sonra ailənin sonbeşiyiydi. Dörd yaşı olanda ailəsi Bakıya köçüb. İlk təhsilini Bakı şəhərində yerləşən Cəbrayıl rayonu 22 saylı orta məktəbdə alıb. Məktəbi bitirdikdən sonra hərbi təhsil almağa niyyətli olub - Vətənə zabit kimi xidmət etməyi arzulayıb. Bunun üçün idmanla məşğul olub, fiziki gücünü artırıb. Cəmşid Naxçıvanski adına Hərbi Liseyə sənəd qəbuluna az müddət qaldığından sənədləri toplamağa vaxtı çatmayıb. Bu, onu xeyli kədərləndirib. Sənədlərini 17 saylı Bakı Peşə Liseyinə verib, rabitə ixtisası üzrə təhsil alıb. Oxuduğu müddətdə onu da hərbi xidmətə çağırıblar. 2019-cu ilin iyulunda hərbi xidmətə başlayıb.

Ana Rəhimə Məmmədova deyir: "2020-ci ilin sərt karantin rejiminin tələblərinə görə xidmət dövründə Türkmanla çox görüşə bilmirdik. Sentyabrın 3-də atasıyla birlikdə hərbi hissəyə getdik. Onu uzaqdan görmək qismət oldu. Nə biləydik ki, bu, onunla son görüşümüzdü".

Bu görüşdən iyirmi dörd gün sonra İkinci Qarabağ müharibəsi başladı.

Türkman komandirlərinə ön cəbhədə vuruşmaq istədiyini israr edib və Vətənini sevən əsgər kimi torpaqlarımızın azadlığı uğrunda döyüşüb.

Ailəsində anasından başqa hamı onun müharibədə döyüşdüyünü bilirdi. Bunu özü tapşırmışdı. Bilirdi ki, anası bunu bilsə, narahat olacaq. Hər dəfə Rəhimə ana telefonla danışanda atəş səsləri eşidirdi. Türkman anasını təlimlər getdiyinə, döyüş bölgəsindən uzaqda olduqlarına inandıra bilirdi. Telefon zəngləri bir neçə gün davam etdi. Türkman döyüşlərdə olduğunu daha anasından gizlətməyin mümkün olmadığını anlayıb hər şeyi ona danışıb. "Məni o qədər rahat etmişdi ki, onun döyüşlərdə olduğunu ağlıma belə gətirməmişdim. Hər dəfə məni yaxşı olduğuna inandırır, narahat olmamağımı tapşırırdı. Evdə hamı həssaslaşmışdı. Telefon zəng çalan kimi Türkmandan xəbər almaq ümidiylə dəstəyi götürürdük. Onunla sonuncu telefon danışığımız oktyabrın 24-ü oldu.



Sonrakı üç gün ondan xəbər ala bilmədik. Olduqca gərgin və narahat idik. Oktyabrın 31-i bizə onun şəhid olduğunu bildirdilər. Türkman oktyabrın 27-si şəhid olub, ancaq biz bundan dörd gün sonra xəbər tuta bildik. Onda demişdim, indi də deyirəm ki, Vətən sağ olsun", - Rəhimə ana kövrələrək deyir.

Atası Yolçu Məmmədov deyir ki, Türkman qızlarımın yeganə qardaşı, arxa-dayağı idi. "Bu günə qədər onunla bağlı narahat olduğum bircə an belə ağlıma gəlmir. Oğlum sayğılı, böyük-kiçik yeri bilən idi. Onu yad edənlər bu xüsusiyyətlərini xüsusi vurğulayırlar".

Ailə dostu Kamal Vəliyev söhbətə qoşularaq deyir: "Türkman gözümüzün qabağında böyüyüb. Heç vaxt onun bizlərə qarşı biganəliyini görməmişik. Türkman azyaşlı olanda nə işə buyururdumsa, həvəslə gedirdi. Olduqca zəhmətkeş oğul idi. Peşə liseyində oxuduğu vaxt ofisiant işləyir, ailəsinə kömək olmağa çalışırdı. Həftənin son günlərini idmanla məşğul olurdu. Türkmanı çoxlarına nümunə göstərərdik".

Qeyd edək ki, Türkman Məmmədov Xocavənd uğrunda döyüşlərdə qəhrəmancasına şəhid olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına uyğun olaraq ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medallarına layiq görülüb.

**Hüsniyyə İDRİSOVA**
**"Azərbaycan Ordusu"**

Düşüncələr

# Bu işıqda Zəfər gözəl görünür

***Sərin payız gecəsiydi. Gün batandan bəri tələsə-tələsə əsən yellər ağacların yarpaqlarında nəfəs dərirdi. Seyrək ulduzlu göy üzündən düşən ay işığı, işıq uman gözlərimizə bəs eləmirdi. Dağ yamacında ağ işıq düzümü görünürdü. Gözlərimizi qırpmadan baxırdıq. Yazı idi - oxuyuruq, qürurlanırıq.***

Qürurlana-qürurlana baxdığımız yazını ruhumuzdan gəlib işığa dönən yazı bilirik. İşıq-yazını, işıq-kəlamı azərbaycançılığın dünyaya sözü kimi bir də oxuyuruq: Əziz Qarabağ, sən bizimsən! Bu kəlam işğaldan azad edilmiş ərazidə gündüz də oxunur, gecə də. Oxuna-oxuna düşündürən, düşündürə-düşündürə oxunan bu kəlam Azərbaycan əsgərinin qətiyyətinin, qüdrətinin işığıdı.

Zəfər onsuz da gözəldi, gözəl görünən Zəfər tarixdə də, ürəklərdə də qürurla yaşadılır. Zəfərin işığından barınan bu işıq deyir ki, bizim başqalarının torpağında gözümüz yoxdur, öz torpağımızı da heç kimə verən deyilik. Bu qətiyyət dövlətçiliyin qətiyyətidi. Sərin payız gecəsində Zəfər-Qətiyyət səsləşməsi də gözlərimdən könlümə süzülən işığa qarışır. Mənə elə gəlir ki, bu günümüzdən dünənlərimizə düşən bu işıq zamanında dünyanı qılıncının şoxu ilə nurlandıran bir xalqın bu günlərə ərənlik salamıdı. "Mən azərbaycanlıyam!" deyənlər də, "Can Azərbaycan!" deyənlər də bu işığı Vətən müqəddəsliyində görür...

O işıqda görünən tarix Azərbaycanın hərb tarixidi, ədalətli müharibənin - İkinci Qarabağ müharibəsinin tarixidi, döyüşlərin tarixidi, Zəfərin tarixidi. Gecəni gecə vaxtı döyüşlərdə də, döyüşlərdən sonra da yaşatmaq niyyəti ilə xəyalən yenidən eşidirəm. Təəssüratlar kimi:

Bu işıq əsgər-döyüşçü dostluğunun sədaqət işığıdı...

İki əsgər vardı - Ziyəddin, Kəramət. Hərbi xidmətə eyni gündə gəlmişdilər. İlk "salam-əleyk"dən bu yana bir yerdəydilər. Eyni taqımda xidmət edirdilər, çarpayıları yan-yanaydı. İkisi də torpaq mehirliydi, ikisi də tariximizi yaxşı bilirdi. İkisi də dürüst dostuydu. Yuxuları dolaşıq düşəndə pıçıltıyla Başlıbel faciəsindən danışırdılar, Qaradağlı faciəsindən danışırdılar, Meşəli, Ağdaban, Xocalı faciəsindən danışırdılar. İşğalı sonlandırmaq üçün, şəri biryolluq yox eləmək üçün onlar da müharibə istəyirdilər...

Müharibə başladı. Bu iki dost Füzuli istiqamətində döyüşürdü. Komandirləri ikisinə və daha iki döyüşçüyə döyüşlə sol tərəfdən düşmənin diqqətini yayındırmaq əmri vermişdi. Həmin tərəfdə döyüşürdülər...

Kəramətin avtomatı kirimişdi. Ziyəddin ona sarı süründü. Sürünə-sürünə səslədi. Kəramətin səsi gəlmədi, Kəramət onu eşidəmi bilmədi, hər nəyiydisə, qəlbini gümanlar didişdirirdi. Bir də səslədi. Güllə səsləri içində bu səssizlikdən ürəyi sıxıldı. Sürünə-sürünə dostuna yetişmək, onun hoyuna çatmaq istədi...

Dostunun gəlişini duyan Kəramət azca dikəldi. Elə bil gözlərinin işığı artdı. Həzin-həzin əsən meh ümidinin köynəyinə döndü, göynəyinin məlhəminə. Dirsəklənmək istədi. Ağrılar imkan vermədi. Canını dişinə sıxıb döyüşlər gedən tərəfə baxdı. Sonra Ziyəddinə sarı. Gözləri torlaşmışdı.

Kəramətə çata-çatda Ziyəddinin sinəsinə snayper gülləsi dəydi...

Bu işıq həm də şəhidliyə ehtiramın işığıdı...

Elvin Şükürlü vardı. Baş leytenantıydı. Xidmət etdiyi hərbi hissə Murovdağ istiqamətində döyüşürdü. Əsgər Samir Qasımovun dedikləri onun da, əsgərlərin də döyüş əzmini, qələbə ruhunu coşdurmuşdu: "Şəhid olsam, qisasımı alsanız, ruhum sizə alqışçı olar...". Elvin döyüşdə şəhid olmuş əsgərin qisasını alacağına and içmişdi.

Dan yeri sökülməkdəydi. Elvin səssizcə düşmənin mövqeyinə düşdü. Qarşısına çıxan düşməni səssizcə məhv etdi, sonra yaxınlaşan başqa düşməni, üçüncünü, dördüncünü... Məhv etdiyi beşinci düşmən avtomatın tətiyini sıxmağa macal tapdı...

Son kəlmələri Elvinin sonuncu nəfəsinə kəfən oldu; Azərbaycan əsgərinin son nəfəsi də Vətənə ad olur...

İkinci Qarabağ müharibəsində şəhidlərin son nəfəsində istəklərini döyüşçü yoldaşları dostluğa, Hərbi anda, dövlətçiliyə sədaqət kimi yerinə yetirirdilər. Bu işıq o döyüşün, o döyüşlərin işığıdı...

Baş leytenant Səid Rəşidzadə bölmə komandiriydi. Xocavənd istiqamətində döyüşürdülər. Səid iri bir daşa dirsəklənib olmuşları xatırlaya-xatırlaya olacaqlar haqqında düşünürdü. Ürəyinin üstünə qoyduğu əlində ilahi bir hərarət hiss edirdi. Müharibə başlayandan bəri sinəsində gəzdirdiyi bayrağımızın hərarətini işğaldan azad edəcəkləri torpaqlara sancmağı düşünürdü. Döyüş-döyüş həmin günə yaxınlaşırdılar...

Şişqayanı azad etmək əmri verildi. Döyüşə-döyüşə irəliləyirdilər. Səidin küräyini döyüşçülərin nəfəsi isidirdi. Komandirin də əsgərləşməsi döyüşçülərin qələbə ruhunu coşdurmuşdu. Döyüşçülərin "Yanındayıq, komandir!" çağırışı didişən güllələrin səsinə qarışmışdı...

Şişqaya göründü. Səid qaçan sonuncu düşmənin arxasınca bir güllə atdı. Nəfəs dərmədən dirəyə bərkidilmiş erməni bayrağını yerə endirdi. Bayrağımızı sinəsindən çıxardıb bağrına basdı, öpdü - baxdı, baxdı - öpdü. Müharibə başlayalı sinəsində gəzdirdiyi bayrağımızı ucalığa qaldırırdı. Döyüşçülərin adından...

Sinəsinə snayper gülləsi dəyəndə son nəfəsi səsindən üzüldü...

Xocavənd rayonunda Qızılqaya yüksəkliyinin işğaldan azad edilməsi əmri verilmişdi. Əmri iki qrup yerinə yetirəcəkdi. Ağır döyüş olacaqdı - düşmən yüksəklikdəydi, döyüşçülərimiz hücumla yüksəkliyə çatmalıydılar. Qrup komandirinin əmri ilə qarşı tərəfə əl qumbarası atasata irəliləyirdilər; düşmən qumbara qəlpələrindən qorunduğu müddətdə irəliləyir, yenidən qumbara atırdılar. Bura düşmən taborunun dayaq məntəqəsi imiş, ona görə belə ciddi müdafiə olunurmuş. Atılan qumbaraların hamısı eyni vaxtda partlamadığına görə bəzən bir qumbara atışından sonra heç üç-dörd metr də irəliləmək olmurdu. Düşmən döyüşçülərimizin güllə məsafəsində olduğunu dərk edəndə çaşdı, çaşqınlıqla atışa-atışa geri çəkilmək istədi. 30-40 dəqiqə çəkən döyüşdə səkkiz düşmən öldürüldü, qalanları, təxminən 50-60 nəfər qaça bildi...

Gecənin gecə vaxtı axşam salamı kimi Qala-şəhərə sarı bir sərinlik axır. "Əziz Qarabağ, sən bizimsən"in işığında ruhən bir vaxtlar İsa bulağının pıçıltılarıyla uyuyan, doğmalara ülviyyət, yadlara heyrət olan Qala-şəhərimizi - ruhumuzun şəhəri Şuşamızı da görürəm.

Şuşaya Daşaltı döyüşlərindən keçib çatacaqdılar. Noyabrın 4-ü idi. Qarqarın sahiliylə kəndə yaxınlaşmaqdaydılar. Daşaltıya tərəf gələn yük maşınları müqavimət göstərən düşmənə hərbi sursat, ərzaq, canlı qüvvə gətirirdi. Bunun qarşısını almalıydılar, döyüşdən əvvəl maşın karvanını məhv etməliydilər. Bu, düşmənin əzmini qıracaqdı. Əmri kiçik bir qrupla yerinə yetirdilər. Döyüşçülərimiz kömək gözləyə-gözləyə inadkarlıqla müqavimət göstərməyə çalışan, az sonra əkshücuma keçmək istəyən düşmənin mövqelərini darmadağın etdilər. 5 döyüşçümüz şəhid oldu. Döyüşə-döyüşə şəhidləri də, ilkin yardım göstəriləndən sonra yaralıları da döyüşün içindən çıxarda bildilər.

Dan yeri söküləndə bölüklərdən biri soldan, dağlıq massivdən, üçü sağdan irəliləyirdi. Ayaqları sürüşə bilərdi, yerişləri dağdan daş qoparda bilərdi, bunlar düşməni duyuq salardı. Hücuma qədər səssizlik şərt idi. Dağlıq massivi böyük ehtiyatla keçdilər. Döyüşə-döyüşə Laçın-Xankəndi yoluna çıxıb yolu bağladılar. Bu, düşmənin Şuşa məğlubiyyəti ərəfəsində ağır mövqe məğlubiyyəti oldu. Şuşa istiqamətində irəlilədilər...

Şuşa döyüşləri XXI əsrin ən böyük, ən heyrətli döyüşləri olub. Bu döyüşlər azərbaycançılığın işğalçılıqla döyüşləriydi. Rusiyanın "Natsionalnaya Oborona" jurnalında dərc edilən bir məqalə Azərbaycan Ordusunun döyüşçülərinə Şuşa döyüşlərində heyrət kimi Şuşa döyüşlərini səmimiyyətlə, dürüstlüklə belə ifadə edir: "Belə döyüş, dövlət, Vətən sevgisi görən olubmu, demək çətindir. Dağ yuxarı, şəhidi çiynində, döyüşə-döyüşə qan-tər içində qalxırdı Azərbaycan Ordusu. Nə yaralısını, nə şəhidini əldən buraxmırdı. Nəfəs almadan Şuşaya çıxdılar".

Bu axşam gecənin gecə vaxtı işğaldan azad edilmiş qəsəbədə ruhumuzun şəhərini də, rus jurnalistinin bu məqaləsini də xatırlamaq Zəfərə, hərb tarixi Zəfərlə süslənən Vətənə sevgimdir, gecənin köksünə sancılan işığın cazibəsində şükranlıqdır...

Şuşanın həndəvərlərində döyüşçülərimizin ayaqları toxunanda dağın hər çıxıntısı nərdivana dönürdü. Sərt qayanı, sərt dağı çıxan, düşməni ucalıqdan yıxan döyüşçülərimiz döyüşə-döyüşə Şuşaya yaxınlaşırdılar. Ruhumuzun şəhəri 1992-ci ilin 8 mayında işğal edilmişdi. Bu işğal sonrakı işğalların başlanğıcı olmuşdu. 2020-ci il noyabrın 8-də Şuşa döyüşləri İkinci Qarabağ müharibəsinin son döyüşləri, Şuşa qələbəsi bu ədalətli müharibədə ruhumuzun qələbəsi oldu...

İkinci Qarabağ müharibəsinin döyüşlərini, Zəfəri təəssüratlarını düşüncələrimə gətirən seyrək ulduzlu gecədə "Əziz Qarabağ, sən bizimsən" işığını Azərbaycan əsgərinin qüdrətinə ehtiram bilirəm. Bu ehtiram xalqın ehtiramıdır.

Bu işıqda Zəfər elə gözəl görünür ki!..

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyədə zəlzələ nəticəsində həlak olanların sayı 31 min 974 nəfərə çatıb



Türkiyədə əsrin fəlakəti adlandırılan zəlzələ nəticəsində həlak olanların sayı 31 min 974 nəfərə çatıb.

Türkiyə vaxtı ilə bu gün saat 13:30-a olan məlumat Fövqəladə Halların İdarə Olunması Agentliyi (AFAD) tərəfindən açıqlanıb.

AFAD-ın məlumatına görə, fevralın 6-da baş vermiş dağıdıcı zəlzələdən sonra 3 min 170 afterşok qeydə alınıb. Hazırda zəlzələ bölgəsində 35 min 249 xilasedici olmaqla, 249 mindən çox personal fəaliyyət göstərir. Təbii fəlakətdən zərər çəkən 195 min 962 nəfər digər vilayətlərə təxliyə olunub.

Axtarış-xilasetmə əməliyyatları zəlzələnin 9-cu günündə də davam edib.

## ABŞ hərbçiləri Kanada ilə sərhəddə növbəti naməlum obyekti vurublar



Şimali Amerika Hava Hücumundan Müdafiə Komandanlığı Çinə məxsus hava şarını və Alyaska və Kanada üzərində uçan naməlum obyektləri vurmasından sonra, bu dəfə Kanada ilə sərhəddə uçan naməlum obyekti zərərsizləşdiriblər.

Miçiqan ştatının respublikaçı nümayəndəsi Cek Berqman öz tviter hesabındakı açıqlamasında "Müdafiə Nazirliyi Böyük Göllər Bölgəsindəki əməliyyatlarla bağlı mənimlə əlaqə saxladı. ABŞ ordusu Huron gölü üzərində yeni bir naməlum obyekti vurub", - deyə bildirib.

ABŞ hərbçiləri fevralın 4-də Cənubi Karolina sahillərində Montana üzərində Çinə məxsus hava şarını vurub. Pentaqon fevralın 9-da Alyaskada naməlum obyekti zərərsizləşdirib. Fevralın 12-də Kanadanın Baş naziri Castin Trüdo ABŞ ilə əməkdaşlıq çərçivəsində Kanadanın Yukon bölgəsi üzərində yeni bir naməlum cisim düşürüldüyünü açıqlamışdı. Beləliklə, ABŞ hərbçiləri son 10 gündə ümumilikdə 4 hava obyektini vurub.

Qeyd edək ki, Şimali Amerika Hava Hücumundan Müdafiə Komandanlığı nüvə silahlarının yerləşdirildiyi Montana əyaləti üzərində qeyri-müəyyən radar fəaliyyəti təsbit edilməsi səbəbindən bölgəni qısa müddətə uçuşlara bağlamış, lakin araşdırmalar zamanı radar təsbitləri ilə əlaqəli hər hansı obyekt tapılmadığını açıqlamışdı.

## Spiegel: Ukrayna hərbçiləri Almaniyada təlim keçəcəklər



Almaniya Silahlı Qüvvələri gələn həftənin ortalarında Ukrayna hərbçilərinə "Leopard 2" tanklarını idarə etmək üçün təlimlər keçəcək.

Bu barədə "Der Spiegel" öz mənbələrinə istinadən məlumat yayıb.

Məlumata görə, Almaniya Hərbi Hava Qüvvələri artıq Ukrayna əsgərlərinin ilk qruplarını təlim keçmək üçün Polşadan Almaniyaya çatdırıb. Təlimlər Aşağı Saksoniya əyalətinin Munster şəhərindəki hərbi poliqonda baş tutacaq, burada ukraynalılara "Marder" piyada döyüş maşınlarını idarə etmək öyrədiləcək.

Bildirilir ki, kurslar sürətləndiriləcək və cəmi 6-8 həftə davam edəcək. Nəşrdə qeyd edilir ki, adətən, hazırlıq bir neçə il çəkir. Bundesver bildirib ki, ukraynalı hərbçilər yalnız tankla işləmə vərdişləri üzrə təlim keçəcək, həmçinin döyüş meydanında "Leopard 2" və "Marder" arasında qarşılıqlı əlaqəni işləyəcəklər.

Nəşrin məlumatına görə, Ukraynada hərbi əməliyyatlar başlayandan bəri Almaniya 1500-ə yaxın ukraynalı əsgərə müxtəlif döyüş sistemləri üzrə təlim keçib.

**AZƏRTAC-ın materialları əsasında**

# Heydər Əliyev adına Hərbi İnstituta 2023-2024-cü tədris ili üçün kursant qəbulu qaydaları

**I.ÜMUMİ MÜDDƏALAR**

**Tədris dili**: Azərbaycan dili
**Təhsil forması**: əyani
**Təhsil müddəti**: 4 il
**Yaş həddi**: Cari ildə mülki ümumtəhsil müəssisələrində tam orta təhsil səviyyəsini bitirmiş, **qəbul ilində 17 yaşı tamam olan və 20 yaşı tamam olmayan** Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları, habelə **18 yaşından 23 yaşınadək** kişi cinsli hərbi qulluqçular və hərbi vəzifəlilər qəbul edilirlər.

Heydər Əliyev adına Hərbi İnstituta qəbul olan kursantlar təhsil müddətində bütün təminat növləri ilə təmin olunur və ayda 153 AZN məbləğində müavinət alırlar. Təhsili və intizamı ilə fərqlənən əlaçı kursantların aylıq müavinətlərinə müvafiq qaydalara uyğun əlavələr edilir.

Heydər Əliyev adına Hərbi İnstitutun məzunlarına hərbi ixtisasla yanaşı, müvafiq mülki ixtisas üzrə bakalavr dərəcəsi də verilir.

**II. SƏNƏDLƏRİN QƏBULU**

**Heydər Əliyev adına Hərbi İnstituta** qəbul olmaq istəyən namizədlər **1 aprel 2023-cü il tarixindən 30 aprel 2023-cü il tarixinədək** ərizə ilə Hərbi İnstitutun rektoruna müraciət etməlidirlər.

**Ərizəyə aşağıdakı sənədlər əlavə olunmalıdır**:

- abituriyentin təsdiq olunmuş elektron ərizəsindən çıxarış;
- şəxsən yazılmış tərcümeyi-hal (əlyazma ilə 1 nüsxədə və çap edilmiş 2 nüsxədə);
- tam orta təhsil haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti (cari ilin məzunları üçün orta məktəbdən verilmiş arayış);
- doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti;
- nikah haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (evli olduqda);
- uşaqların doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq edilmiş surəti (uşaq olduqda);
- oxuduğu təhsil müəssisəsindən (iş və ya yaşayış yerindən) verilmiş xasiyyətnamə;
- evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış;
- rəngli fotoşəkil (baş geyimsiz, anfas) - 6 ədəd 3x4 sm və 2 ədəd 4.5x6 sm ölçüdə;
- 18 yaşı tamam olmayan namizədlər üçün valideynlərin və ya qəyyumlarının notarial qaydada təsdiq edilmiş razılıq ərizələri;
- elektrokardioqramma;
- qanın ümumi analizi, qan qrupu və rezus-faktor;
- qanın QİÇS və sifilisə görə seroloji reaksiyalara dair müayinələrinin nəticələri;
- qanın hepatit C və hepatit B-yə dair müayinələrinin nəticələri;
- sidiyin ümumi analizi;
- psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərindən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar.

İnstituta **"Təyyarəçilik"** ixtisası üzrə daxil olmaq istəyənlər yuxarıda göstərilmiş sənədlərdən əlavə olaraq qanın nəcisdə helmintlərin yumurtalarının və lyambliyaların sistlərinin müayinəsinə dair tibbi sənəd də təqdim etməlidirlər.

**Şəxsiyyət vəsiqəsi, doğum haqqında şəhadətnamə, hərbi qeydiyyat haqqında sənəd və təhsil haqqında sənədin əsli namizəd tərəfindən komissiyaya şəxsən təqdim edilir.**

**III. HƏRBİ İNSTİTUTA QƏBUL AŞAĞIDAKI QAYDADA HƏYATA KEÇİRİLİR**

Namizədlər Heydər Əliyev adına Hərbi İnstitutda yaradılmış hərbi həkim komissiyasında müayinədən keçməlidirlər. Hərbi həkim komissiyasından keçmənin tarixi sənəd qəbulu zamanı qəbul komissiyası tərəfindən müraciət etmiş şəxsə bildirilir.

**Naxçıvan Muxtar Respublikasında** yaşayanlar hərbi həkim komissiyasında müayinədən **Heydər Əliyev adına Hərbi Liseydə** (Naxçıvan şəhəri) keçməlidirlər.

Müraciət edən şəxslərin **məhkumluğu barədə arayışın** alınması Heydər Əliyev adına Hərbi İnstitut rektorunun sorğusuna əsasən Müdafiə Nazirliyinin müvafiq idarəsi tərəfindən həyata keçirilir.

Müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı qəbul imtahanında iştirak etmək üçün **Dövlət İmtahan Mərkəzinə** göndərilir.

Heydər Əliyev adına Hərbi İnstituta qəbul üçün keçiriləcək qəbul imtahanına hərbi həkim komissiyasından müvəffəqiyyətlə keçmiş namizədlər buraxılır.

Namizədlər **Dövlət İmtahan Mərkəzi** tərəfindən keçirilən qəbul imtahanı verirlər. Qəbul imtahanı **I ixtisas qrupunun fənləri üzrə** keçirilir.

Namizədlər Heydər Əliyev adına Hərbi İnstituta Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 39 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları"na uyğun olaraq mərkəzləşdirilmiş qaydada **Dövlət İmtahan Mərkəzi** tərəfindən həyata keçirilən imtahanlarda əldə etdikləri nəticələr əsasında qəbul edilirlər.

**Sənədlər Heydər Əliyev adına Hərbi İnstitutda yaradılmış komissiya tərəfindən qəbul olunur.**

**Ünvan**: Bakı şəhəri, Polad Həşimov küçəsi 9 (əlaqə telefonu: 012-479-78-40).

**Naxçıvan Muxtar Respublikasında yaşayan şəxslər sənədlərini Heydər Əliyev adına Hərbi Liseyə (Naxçıvan şəhəri) təqdim edirlər** (əlaqə telefonu: 036-544-00-15, 036-544-00-16).

Qəbul imtahanının tarixi **Dövlət İmtahan Mərkəzi** tərəfindən elan olunduqdan sonra əlavə olaraq bildiriləcək.

Əlavə məlumat **Azərbaycan Respublikası Müdafiə Nazirliyinin və Heydər Əliyev adına Hərbi İnstitutun** internet saytında yerləşdiriləcək.

**www.mod.gov.az**
**www.aahm.mod.gov.az**

## Qəzetimizin 11-ci sayında dərc olunan "İlanvari sözlər"in və krossvordun düzgün cavabları

| K | O | M | M | U | N | İ | K | A | S | İ | Y | A |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|

| | | |
|---|---|---|
| K | T | O |
| A | R | R |
| D | E | K |

| | | |
|---|---|---|
| O | Z | Ə |
| M | Ü | F |
| R | Ə | F |

| | | |
|---|---|---|
| O | P | R |
| L | T | E |
| M | N | İ |

| | | |
|---|---|---|
| M | M | T |
| M | Ə | Ə |
| L | Ə | K |

| | | |
|---|---|---|
| R | İ | U |
| M | Y | Ə |
| A | N | D |

| | | |
|---|---|---|
| O | T | P |
| Y | M | U |
| N | E | L |

| | | |
|---|---|---|
| J | P | E |
| A | O | R |
| T | R | İ |

| | | |
|---|---|---|
| G | A | H |
| N | A | N |
| K | Ş | İ |

| | | |
|---|---|---|
| A | K | R |
| M | O | İ |
| A | N | D |

| | | |
|---|---|---|
| T | K | İ |
| N | S | N |
| E | L | O |

| | | |
|---|---|---|
| İ | Ö | M |
| Ə | T | Ə |
| Z | İ | R |

| | | |
|---|---|---|
| T | A | Y |
| S | N | S |
| A | Y | İ |

| | | |
|---|---|---|
| Y | İ | C |
| Y | M | Ə |
| Ə | T | A |

**Soldan sağa**

2. Tiflis
5. Göyçay
7. Musa
9. Adex
11. Nəsibə
13. Saz
14. Qaraxanbəyli
15. Banuçiçək
18. Komutan
20. Rövşən
23. Gəncə
25. Tahir
27. Dana
30. Mehmetçik
31. Hadrut
34. Qazan
35. Polad
38. Albert
39. Topallahı
40. Şabran
43. Professor
44. Nar
45. Siti
46. Moldova
51. Tofiq
52. Saatdar
53. Namiq
54. Naxçıvan
55. Cavad
56. İstanbul

**Yuxarıdan aşağı**

1. Çexiya
3. Yanvar
4. Pamuk
6. Yemək
7. Magistr
8. Vinçi
10. Xosrov
12. Vatikan
14. Qılınc
16. Əhməd
17. Sabir
19. Tacmahal
21. Vəkilov
22. Ər
24. Cəbiş
26. Abbas
28. Berlin
29. Şlemofon
32. Rütbə
33. Təbriz
36. Baloğlan
37. Xarala
41. Argentina
42. Uzunhəsən
45. Səməd
46. Matros
47. Fərrux
48. İtiqovan
49. Tağıyev
50. Bahar

# İdman

## Qadın qılıncoynadanlarımız Dünya Kubokunda gümüş medal qazanıblar



Özbəkistanın paytaxtı Daşkənd şəhərində keçirilən sablya üzrə Dünya Kubokunun mərhələ yarışında qadın komandalar arasında mükafatçılar müəyyənləşib.

Anna Başta, Valeriya Bolşakova, Səbinə Kərimova və Palina Kaspiaroviçdən ibarət komandamız ilk görüşündə Kanada yığmasına 45:38 hesabı ilə qalib gələrək ən güclü 8-liyə yüksəlib. Dörddəbir finalda komandamız turnirin reytinq favoriti Fransa millisini 45:44 hesabı ilə mübarizədən kənarlaşdırıb. Yarımfinalda Macarıstan seçmə kollektivini 45:37 hesabı ilə məğlub edən qadın sablyaçılarımız finalda Bolqarıstan millisinə 40:45 hesabı ilə uduzaraq Dünya Kubokunun gümüş medalını qazanıb.

## Azərbaycan millisi Qızıl kəmər seriyasında komanda hesabında ikinci olub

Mərakeşdə keçirilən boks üzrə Qızıl kəmər seriyası çərçivəsində ilin ilk turnirində medal sayına görə komandaların tutduqları yer açıqlanıb.

34 ölkənin iştirak etdiyi yarışda Azərbaycan millisinin də qərarlaşdığı yer məlum olub.

Baş məşqçi Pedro Rokenin rəhbərlik etdiyi yığma 2 qızıl, 1 gümüş və 2 bürünc medalla kişi komandaları arasında ikinci yeri tutub. Birinci pillədə Rusiya (9-2-0) qərarlaşdığı halda, "üçlüy"ü İtaliya (1-1-1) qapayıb.

Qeyd edək ki, Qızıl kəmər seriyasında boksçularımızdan Ümid Rüstəmovla (57 kq) Nəbi İsgəndərov (67 kq) qızıl, Alfonso Dominqes (86 kq) gümüş, Məsud Yusifzadə (51 kq) və Sərxan Əliyev (71 kq) bürünc medal qazanıb.

## Boksçumuz Tural Sarıyev Macarıstanda bürünc medal qazanıb



Azərbaycan boksçusu Tural Sarıyev Macarıstanın Debretsen şəhərində beynəlxalq turnirdə yarımfinal döyüşünü keçirib.

Turnirdə 48 kiloqram çəki dərəcəsində mübarizə aparan yığmamızın üzvü finala gedən yolda Temirats Jusspovla (Qazaxıstan) qarşılaşıb.

Döyüş rəqibin qələbəsi ilə başa çatıb. T.Sarıyev yarışı bürünc medalla başa vurub.

Qeyd edək ki, turnirdə 26 ölkədən 294 boksçu qatılıb.

## Ronaldo Səudiyyə Ərəbistanı çempionatında pokerə imza atıb



"Əl-Nəsr"in hücumçusu Kriştiano Ronaldo Səudiyyə Ərəbistanı çempionatının 16-cı turunda "Əl-Vəhdə" ilə oyunda pokerə imza atıb.

Portuqaliyalı futbolçu bununla het-trik sayını 61-ə çatdırıb.

Forvard bunun 51-ni klub, 10-nu isə millidə vurub. Ronaldonun ən yaxın izləyicisi isə əzəli rəqibi Lionel Messidir. PSJ-nin argentinalı hücumçusu ümumilikdə 56 het-triklə yadda qalıb.

Ronaldo, eyni zamanda, milli çempionatlarda vurduğu qol sayını 503-ə çatdırıb. Qarşılaşmadakı ilk qol onun 500-cü liqa qolu olub.

Qeyd edək ki, görüş "Əl-Nəsr"in 4:0 hesablı qələbəsi ilə yekunlaşıb.

**AZƏRTAC-ın materialları əsasında**

Gizir Nəsirzadə Zaur Teymur oğluna məxsus GM № 000177 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Elvin VƏTƏNDUST

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 100
Nüsxə 4663